# Seminar-müşavirə

***Qəbələdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.***

Dindarların, dini icma sədrlərinin, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Absalam Hüseynov Azərbaycanda hər zaman bütün dinlərə və fərqli mədəniyyətlərin daşıyıcılarına qayğı ilə yanaşıldığını bildirib.

Müşavirədə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı nümunəvi dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərimizin qorunması, tolerant və multikultural ənənələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən, o cümlədən din xadimlərinin sosial şəbəkələrdən aktiv istifadə etməsinin vacibliyindən danışıb.

Bildirib ki, günümüzdə dövlətimizin din siyasəti ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi demokratik dövlət quruculuğu siyasətinə əsaslanır. Ulu öndərin siyasi varisi, layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarına, xüsusilə vicdan və dini etiqad azadlığının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, insanların, xüsusən də gənclərimizin dəyərlərimizə sadiq yetişməsinə böyük önəm verilir.



Səyyad Salahlı qeyd edib ki, din pərdəsi altında gizlənmiş, İslamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı seçkiliyi salan, digər dinlərə münasibətlərə ciddi zərbə vuracaq materialları yayan qüvvələrə qarşı din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə də böyük məsuliyyət düşür. Onlar İslamın, dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini insanlarımıza sadəcə məsciddən yox, həm də məhz sosial media vasitəsilə çatdırmaqda aktivlik nümayiş etdirməlidirlər. Sədrin birinci müavini din xadimlərini sosial medianın gücündən və imkanlarından istifadə edərək respublikamızda sabitliyi pozmaq istəyən, yüksək dini ideyalar uğrunda mübarizə pərdəsi altında fəaliyyət göstərən qrupların əsl simasının ifşa edilməsində prinsipiallıq və aktivlik nümayiş etdirməyə çağırıb.

Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Ramil Baxşəliyev isə vurğulayıb ki, dini müxtəlif siyasi maraqların təmin olunmasında vasitəyə çevirməyə çalışan dairələr var. Belə dairələrin əsas ortaq cəhəti odur ki, cəmiyyətdə dini birləşdirici faktor olmaqdan çıxararaq bölücü funksiya daşımasına nail olsunlar. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsinin müdiri Taleh Abdullayev, DQİDK-nın əməkdaşı Tərxan Paşazadə və başqaları çıxışlarında ölkəmizdə heç vaxt dinlərarası, millətlərarası zəmində hər hansı mübahisələrin, çəkişmələrin, digər xoşagəlməz halların olmadığını diqqətə çatdırıblar. Natiqlər, həmçinin ölkəmizdə milli-mənəvi və İslami dəyərlərin qorunması və təbliği sahəsində görülən işlərdən də bəhs ediblər.

DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filminin də nümayiş olunduğu ikigünlük seminar-müavirə müzakirələrlə başa çatıb.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# Daşınan əmlakla bağlı təlim

Maliyyə Bazarlarına Nəzarət Palatası (Palata) və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birgə 30 avqust 2019-cu il tarixində Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Qəbələdə mikro, kiçik və orta sahibkarlıq (KOS) subyektləri üçün daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin (reyestr) məqsədi, iş prinsipi və üstünlükləri ilə bağlı təlim keçirilib.



Sahibkarların və kredit təşkilatlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə ölkədə həyata keçirilən islahatların uğurlu nəticələri barədə məlumat verilib, bu islahatların məntiqi nəticəsi olaraq ölkəmizin nüfuzlu "Doing Business - 2019" hesabatında 190 ölkə arasında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşması xüsusi vurğulanıb.

Reyestrin üstünlükləri barədə danışılarkən onun əsas iş prinsipi, yüklülüyün növləri və yüklülük predmeti, sahibkarlar və maliyyə qurumları üçün faydası barədə ətraflı məlumat verilib. Bildirilib ki, daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan daşınar əşyalar və dövlət qeydiyyatına alınmalı olan qiymətli kağızlar istisna olmaqla, yüklülük predmetini istənilən daşınar əmlak, habelə hüquqlar və tələblər, o cümlədən gələcəkdə yüklülük sahibinin mülkiyyətində olacaq daşınar əmlak təşkil edə bilər. Daşınar əşyalara hər cür avadanlıqları, kənd təsərrüfatı texnikalarını, heyvanları, biznesdə istifadə olunan əşyaları aid etmək olar.

Qeyd edək ki, 30 avqust 2019-cu il tarixinə reyestrdə qeydiyyatdan keçmiş şəxslərin sayı 600-dən çox, sistemə daxil edilmiş bildirişlərin sayı isə 37 mindən artıq olub.

Daha sonra, KOBİA-nın yaradılmasının məqsədi və fəaliyyət istiqamətləri barədə məlumat verilib, agentliyin fəaliyyətinin əsas məqsədinin kiçik və orta sahibkarlığın yaradılması və inkişafının bütün mərhələlərində zəruri dəstək tədbirlərinin həyata keçirilməsi olduğu bildirilib. Bu tədbirlər güzəştli maliyyə mənbələrinə çıxışın asanlaşdırılması, qabaqcıl təşkilati modellərin tətbiqi, davamlı təlim sisteminin yaradılması, yeni ideya və innovasiyaların biznesə inteqrasiyası, xarici bazarlara çıxış, sahibkarların maraqlarının müdafiəsi və digər istiqamətləri əhatə edir.

Təlimdə həmçinin sığorta bazarı ilə bağlı maarifləndirmə xarakterli mövzulara toxunulub. Palata əməkdaşları tərəfindən sığorta bazarı, bazarın xüsusiyyətləri, sığortanın növləri haqqında təqdimatlar edilib.

**«Qəbələ»**

Adını unutduğum tarixçilərdən biri deyib ki, "Çox təəsüf ki, bəşəriyyət tarixi müharibələr tarixidir". Bütün tərəqqipərvər bəşəriyyətin sülh arzusu ilə yaşamasına baxmayaq bu belədir.

# Sülh bəşəriyyətin arzusudur

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Bəşərriyyət sülh istəyir" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə Qəbələ UADM-in, Heydər Əliyev Mərkəzinin, rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşları, mərkəzin qeydiyyatında olan uşaqlar iştirak ediblər.

UADM-in sosial iş üzrə mütəxəssisi Hökümə İsmayılova, Qəbələ Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı İlhamə Seyidova çıxışlarında bəşəriyyətin inkişafı üçün sülhün nə qədər böyük nemət olduğundan bəhs etmişlər. Çıxışlarda vurğulanmışdır ki, bədnam qonşumuz erməni vandalları torpaqlarımızın 20 faizini işğal altında saxlamaqda davam edir. Biz bu münaqişənin sülh yolu ilə həllini istəsək də nəticə olmadıqda müharibə yoluna da hazır olmalıyıq.

Sonda uşaqların ifasında şeirlər səslənmiş, "Sülhün azadlıq nəğməsi" adlı videoçarx nümayiş etdirilmişdir.

**Hökümə İSMAYILOVA,**
**UADM-in əməkdaşı.**

# Yeni kitabların təqdimatı

Son illər «Qəbələ» ədəbi cəmiyyətinin fəaliyyəti xeyli dərəcədə genişlənmişdir. Bu günlərdə QHT Qəbələ Regional Resurs və Təlim mərkəzində Qəbələ yazarlarının yeni çap olunmuş kitabların təqdimatı keçirilmişdir. Təqdimat toplantısında Cəlil Komradlının «Ana dilim», Mirhəsən Mirzəbəylinin «O, mənim anam deyil» və Elçin Dönməzin «Qəbələ dünyanın möcüzəsidir» kitabları müzakirə olunmuşdur.



«Qəbələ» ədəbi birliyinin rəhbəri Şəhla Xəlilqızı toplantını açıq elan etdikdən sonra söz bu sətirlərin müəllifinə verilmişdir. Təqdimat mərasimində yazarlarla bərabər oxucular da iştirak etmişlər. Oxucu Sədaqət Bayramova hər üç kitab haqqında fikir söyləmiş və Qəbələ yazarlarına uğurlar arzulamışdır. Toplantıda həmyerlimiz, «Ziyalı» jurnalının bölgə müxbiri yazar Ənvər Durucalı çıxış edərək müəlliflərin şeirlərindən nümunələr söyləmişdir. Yazarlardan Fərman Əzizli, Fəxrəddin Babəbəyli, Qərib Hüseynov, Aynur Dərya, Əhməd Məmmədli, Mİrzəbala Yediyarov, oxuculardan Tofiq Cəlilov, Əhəd Kərimxanov çıxış edərək yeni kitablara münasibətlərini bildirmiş, müəlliflərə uğurlu yaradıcılıq arzulamışlar.

Hər üç müəllif çıxış edərək toplantı iştirakçılarına təşəkkürlərini bildirmişlər. Sonra QHT resurs vətəlim mərkəzinin icraçı direktoru Səbuhi Nəbiyev çıxış edərək «Qəbələ» ədəbi birliyinin üzvlərinə uğurlar diləmişdir.

# Həmişə mətin ol!

Sadə peşə adamlarından yazmaq mənə xoş gəlir. Elə buna görə də onlardan çox yazıram. Bu gün haqqında söhbət açacağım sadə peşə sahibi, sürücülərin yaxın dostu olan Mətin Dadaşovdur.

1996-cı ildə Bum qəsəbəsində zəhmətkeş bir ailədə dünyaya gəlib. Doqquzuncu sinfi Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində bitirib. Avtomobil çilingəri peşəsini öyrənib. Aprtıq 5 ildir ki, müstəqil olaraq bu peşənin dalınca gedir. İndi o, Qara çay adlanan ərazidə avtomobil təmiri emalatxanalarının birində çalışır. Mətin adı kimi elə mətin də oğlandır. Gülərüzlülüyü, mehribanlığı, bacarığı ilə müştərilərin hörmətini qazanıb. Mətin Dadaşov həm də gözəl amartizator təmiri ustasıdır. Gənc ustaya uğurlar arzulayır və deyirəm:

«Həmişə mətin ol, Mətin!

**Emin BARATOĞLU,**
**AYB-nin-nin üzvü, «Qəbələ»nin müxbir postunun rəhbəri.**